# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər edilməsi və bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi barədə

# Qərar № 153

***Bakı şəhəri, 1 oktyabr 2007-ci il***

«Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli, 583 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına aşağıdakı dəyişikliklər edilsin:

1.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli, 60 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 4, maddə 267; 2001-ci il, № 1, maddə 70, № 7, maddə 512; 2003-cü il, № 8, maddə 460; 2005-ci il, № 9, maddə 855, № 11, maddə 1061) ilə təsdiq edilmiş «Nəqliyyat vasitələrinin duracaqları və qarajları haqqında nümunəvi Əsasnamə»nin 3.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

*«3.4. DİN BDYP İdarəsinin nəzdində fəaliyyət göstərən duracaq və qarajlarda xidmətə görə ödəniş Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilən tarifə uyğun tutulur.»;*

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 27 sentyabr tarixli, 158 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 9, maddə 566; 2001-ci il, № 7, maddə 512; 2003-cü il, № 6, maddə 342; 2005-ci il, № 2, maddə 129) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərə məxsus traktor, özüyeriyən maşın və mexanizmlərin texniki vəziyyəti və istismarı üzərində dövlət nəzarəti haqqında Əsasnamə»nin 2.7-ci bəndində *«haqların»* sözü *«dövlət rüsumlarının və ya haqların»* sözləri ilə əvəz edilsin;

1.3. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər edilməsi və bəzi qərarlarının və sərəncamının qüvvədən düşmüş hesab edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 10 mart tarixli, 27 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193; 2007-ci il, № 1, maddə 54) 1-ci bəndində *«2.2.3-cü və 2.2.5-ci bəndlərində»* sözləri *«2.2.5-ci bəndində»* sözləri ilə əvəz edilsin;

1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli, 147 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 9, maddə 759, № 12, maddə 1079; 2005-ci il, № 6, maddə 535) ilə təsdiq edilmiş «Ovçuluq biletinin forması, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul

olmaq istəyən şəxslərə verilməsi qaydası»nın 1.5-ci bəndində *«Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qərarı (əmri)»* sözləri *«Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının qərarı»* sözləri ilə əvəz edilsin.

2. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş hesab edilən bəzi qərarlarının Siyahısı» təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, öz səlahiyyəti daxilində Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən qəbul edilən müvafiq qərarlar qüvvəyə mindiyi gündən dövlət tənzimlənməsi tətbiq edilən qiymətlərə (tariflərə), xidmət haqlarına, yığımlara aid olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarları qüvvədən düşmüş hesab edilir.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 2007-ci il, № 10 (124), maddə 1013)***

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2007-ci il 1 oktyabr tarixli,*
*153 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş hesab edilən bəzi qərarlarının

# Siyahısı

1. «Rabitə xidmətləri üçün tariflərə artan əmsalların müəyyən olunması haqqında» Azərbaycan SSR Nazirlər Sovetinin 1991-ci il 4 fevral tarixli, 118 nömrəli qərarı.

2. «Qiymətlərin və tariflərin sərbəstləşdirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 2 yanvar tarixli, 3 nömrəli qərarı.

3. «Dəniz nəqliyyatı ilə sərnişin və yük daşınması üçün tariflərin artımının yuxarı hədd əmsallarının dəyişdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 mart tarixli, 170 nömrəli qərarı.

4. «İstehsal ehtiyacları üçün buraxılan elektrik və istilik enerjisinə tariflərin dəyişməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 7 aprel tarixli, 200 nömrəli qərarı.

5. «Dəmiryolu nəqliyyatı ilə yüklərin daxili daşınması üçün tarif və xidmətlərin artımının yuxarı hədd əmsallarına dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 aprel tarixli, 207 nömrəli qərarı.

6. «Azərbaycan Respublikasının daxili bazarının iqtisadi müdafiəsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 aprel tarixli, 226 nömrəli qərarı.

7. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 2 yanvar tarixli, 3 nömrəli qərarına dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 aprel tarixli, 230 nömrəli qərarı.

8. «Respublikada tədarük olunan taxılın satınalma qiymətləri barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 iyul tarixli, 405 nömrəli qərarı.

9. «Təbii qazın qiymətləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 14 may tarixli, 260 nömrəli qərarına qismən dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 7 avqust tarixli, 430 nömrəli qərarının 1-ci bəndi.

10. «Dərman vasitələrinə və tibbi təyinatlı məmulatlara qiymətqoyma haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 11 avqust tarixli, 438 nömrəli qərarı.

11. «Xam pambığın satış qiymətləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 oktyabr tarixli, 591 nömrəli qərarı.

12. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Dərman vasitələrinə və tibbi təyinatlı məmulatlara qiymətqoyma haqqında» 1992-ci il 11 avqust tarixli, 438 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 12 dekabr tarixli, 664 nömrəli qərarı.

13. «Azərbaycan Respublikası ərazisində yerləşən və keçmiş SSRİ hərbi-sənaye kompleksinin sifarişlərini yerinə yetirən birlik və müəssisələrin konversiyası haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli, 699 nömrəli qərarının 5-ci bəndi.

14. «Azərbaycan dəmir yolu nəqliyyatı ilə sərnişin daşınma tariflərinin artırılması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 31 dekabr tarixli, 708 nömrəli qərarı.

15. «Məktəbəqədər uşaq müəssisələrində və internat məktəblərində uşaqların saxlanılması haqqının və musiqi məktəblərində təhsil haqqının miqdarı barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 5 yanvar tarixli, 2 nömrəli qərarı.

16. «Azərbaycan Respublikasında daxili bazarın tənzimlənməsi və əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 dekabr tarixli, 647 saylı qərarında qismən dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 22 yanvar tarixli, 42 nömrəli qərarı.

17. «Azərbaycan Respublikası istehlakçılarına buraxılan elektrik və istilik enerjisi tariflərinin dəyişdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 26 yanvar tarixli, 52 nömrəli qərarının 1-ci və 2-ci bəndləri.

18. «Arağın aksiz dərəcəsinin dəyişdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 23 fevral tarixli, 124 nömrəli qərarının 1-ci bəndi.

19. «Azərenerji» İstehsalat Birliyinin maliyyə vəziyyətini sabitləşdirmək və ritmik işləməsini təmin etmək tədbirləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 24 fevral tarixli, 125 nömrəli qərarının 1-4-cü bəndləri.

20. «Şampan, tünd və süfrə şərablarının aksiz dərəcələrinin dəyişdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 20 mart tarixli, 156 nömrəli qərarının 1-ci və 2-ci bəndləri.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli, 343 nömrəli qərarı ilə təsdiq edilmiş «Milli sertifikatlaşdırma sistemi haqqında Əsasnamə»nin 2.2.3-cü bəndi, 2.2.4-cü bəndinin altıncı abzası və 3.6.1-ci bəndi.

22. «Azərbaycan dəmir yolu nəqliyyatı ilə sərnişin daşınma tariflərinin artırılması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 6 oktyabr tarixli, 532 nömrəli qərarı.

23. «Azərbaycan Respublikasının meşələrində əsas meşə cinslərinin kötüküstü buraxılış nırxları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 26 oktyabr tarixli, 548 nömrəli qərarının 1-3-cü bəndləri.

24. «Əsaslı tikintidə və təmir-tikinti işlərində tətbiq olunan üstəlik xərclərin həddi normaları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 20 dekabr tarixli, 625 nömrəli qərarı.

25. «Respublikada şəhərlərarası və MDB ölkələrinə avtobuslarla sərnişin daşınması tariflərinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 21 yanvar tarixli, 20 nömrəli qərarının 1-ci və 2-ci bəndləri.

26. «Azərbaycan dəmir yolu nəqliyyatı ilə dövlətlərarası sərnişin daşınma tariflərinin artırılması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 4 fevral tarixli, 39 nömrəli qərarı.

27. «Azərbaycan Dəmir Yolunu böhrandan çıxarmaq və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün təxirəsalınmaz tədbirlər haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 14 fevral tarixli, 59 nömrəli qərarının 9-cu bəndinin a) yarımbəndi.

28. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 yanvar 1993-cü il tarixli, 2 saylı «Məktəbəqədər uşaq müəssisələrində və internat məktəblərində uşaqların saxlanılması haqqının və musiqi məktəblərində təhsil haqqının miqdarı barədə» qərarında dəyişikliklər və əlavələr haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 may tarixli, 171 nömrəli qərarı.

29. «Azərbaycan Respublikası mülki aviasiyasının hava nəqliyyatı ilə sərnişin, baqaj, poçt və yük daşıma tariflərinin artırılması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 27 iyun tarixli, 250 nömrəli qərarının 1 — 3-cü bəndləri.

30. «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin maliyyə-təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması tədbirləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 avqust tarixli, 290 nömrəli qərarının 3-cü bəndi.

31. «Dəniz nəqliyyatında sərnişin daşıma tariflərinin artırılması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 13 avqust tarixli, 305 nömrəli qərarı.

32. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 20 dekabr tarixli, 625 saylı qərarının şamil edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 13 avqust tarixli, 308 nömrəli qərarı.

33. «Azərbaycan Hava Yolları» Dövlət Konserninin sərnişin, baqaj, poçt və yük daşıma tariflərinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 2 noyabr tarixli, 374 nömrəli qərarı.

34. «Çörək və çörək məmulatlarının qiymətlərinin tənzimlənməsi və əhalinin bu məhsullarla təmin edilməsinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 noyabr tarixli, 378 nömrəli qərarının 1-4-cü bəndləri.

35. «Azəravtonəqliyyat» Dövlət Konserninin şəhərlərarası avtobuslarla sərnişin daşıma tariflərinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 7 noyabr tarixli, 380 nömrəli qərarı.

36. «Telefon rabitəsi xidmətləri tariflərinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 14 noyabr tarixli, 386 nömrəli qərarının 1-ci və 2-ci bəndləri.

37. «Azərbaycan dəmir yolu nəqliyyatı ilə sərnişin daşınması tariflərinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 14 noyabr tarixli, 388 nömrəli qərarının 1-ci və 2-ci bəndləri.

38. «Naxçıvan Muxtar Respublikasına mülki aviasiyanın uçuş tariflərinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 noyabr tarixli, 399 nömrəli qərarının 2-ci bəndi.

39. «Dəniz nəqliyyatında sərnişin daşıma tariflərinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 2 dekabr tarixli, 411 nömrəli qərarı.

40. «Şərabçılıq məhsulları üzrə içkilərin aksiz dərəcələrinin dəyişdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 21 aprel tarixli, 88 nömrəli qərarının 1-ci və 2-ci bəndləri.

41. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Bəzi məhsulların aksiz dərəcələrinin dəyişdirilməsi barədə» 25 avqust 1994-cü il tarixli, 319 nömrəli qərarında qismən dəyişiklik edilməsi haqqında» 21 aprel 1995-ci il tarixli, 86 nömrəli qərarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 25 may tarixli, 130 nömrəli qərarı.

42. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərenerji» İstehsalat Birliyinin maliyyə vəziyyətini sabitləşdirmək və ritmik işləməsini təmin etmək tədbirləri haqqında» 1993-cü il 24 fevral tarixli, 125 nömrəli qərarı barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 19 sentyabr tarixli, 210 nömrəli qərarının 1-ci bəndinin ikinci abzası.

43. «Neft məhsullarının aksiz dərəcələrinə dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 31 oktyabr tarixli, 234 nömrəli qərarının 1-ci bəndi.

44. «Respublikada istehsal olunan şərab və konyak materiallarının, habelə tündləşdirilmiş içkilərin satışının tənzimlənməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 30 mart tarixli, 36 nömrəli qərarının 1-ci və 2-ci bəndləri.

45. «Şampan şərablarına və III, V dərəcəli siqaretlərə (filtrsiz) aksiz dərəcəsinin dəyişdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 5 avqust tarixli, 104 nömrəli qərarının 1-ci bəndi.

46. «Azərbaycan Respublikasında təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi qaydaları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 15 avqust tarixli, 109 nömrəli qərarı.

47. «Elektrik enerjisinin dəyərinin ödənilməsi üzrə təxirəsalınmaz tədbirlər haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 13 iyun tarixli, 60 nömrəli qərarının 10-cu bəndinin üçüncü abzası.

48. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 22 iyul tarixli, 82 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 1, maddə 79).

49. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli, 175 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 8, maddə 558; 2004-cü il, № 3, maddə 193, № 9, maddə 750; 2005-ci il, № 7, maddə 665, № 10, maddə 978, № 12, maddə 1226; 2006-cı il № 9, maddə 822, № 12, maddə 1163; 2007-ci il, № 1, maddə 49) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydaları»nın (AZ 031.01.) 5.4-cü bəndinin iyirmi səkkizinci abzasının ikinci cümləsi.

50. «Kənd təsərrüfatı məhsullarının istehsalçılarına neft məhsullarının güzəştli satışı barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 26 mart tarixli, 49 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 204).

51. «Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin fəaliyyətinin tənzimlənməsi və onun əsasnaməsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 27 sentyabr tarixli, 158 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 9, maddə 566; 2001-ci il, № 7, maddə 512; 2003-cü il, № 6, maddə 342; 2005-ci il, № 2, maddə 129) 5-ci bəndinin doqquzuncu və onuncu abzasları.

52. «Kənd təsərrüfatı məhsullarının istehsalçılarına neft məhsullarının güzəştli satışı barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 26 mart tarixli, 49 nömrəli qərarının icrasının 2000-ci ilə şamil edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli, 4 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 75).

53. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 16 iyul tarixli, 97 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 588; 2006-cı il, № 5, maddə 463) ilə təsdiq edilmiş «Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası»nın 1.6-cı bəndi.

54. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavə və dəyişiklik edilməsi və bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli, 160 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 10, maddə 877) 1-ci və 2-ci bəndləri.

55. «Neft məhsullarının qiymətlərinin respublika daxilində tənzimlənməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 1 noyabr tarixli, 165 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 11, maddə 956; 2005-ci il, № 1, maddə 59; 2007-ci il, № 1, maddə 45) 2-ci və 3-cü bəndləri.